İnsan hüquqları pərdəsi arxasında gizlənən maraqlar

Avropa Şurası insan hüquqları, qanunun aliliyi və demokratik prinsipləri qorumaq üçün yaranmış təşkilatlarından biridir. 1949-cu ildə təsis edilən, 46 üzv dövləti birləşdirən təşkilatın rəhbər strukturlarından biri olan Baş katiblik Avropa Şurasının strateji istiqamətlərini müəyyənləşdirir. Baş katibin seçilməsi prosesində Avropa Şurası Parlament Assambleyası (AŞPA) əsas rol oynayır və bu vəzifə beşillik müddətə təsdiqlənir. Baş katib bürokratik məsələlərlə yanaşı, müxtəlif problemlərinin həlli üçün proqramların həyata keçirilməsinə məsuldur. Azərbaycan və Avropa Şurası arasında əlaqələrin tarixi isə müstəqillikdən qısa müddət sonra başlamışdır. 1992-ci il yanvarın 24-də Azərbaycan Respublikası Parlamenti Avropa Şurasına "xüsusi dəvət edilmiş qonaq" statusu ilə müraciət etdi. 1996-cı ildə Azərbaycan Venesiya Komissiyasına qəbul olundu. 2000-ci ilin iyununda AŞPA-da keçirilən sessiyada Azərbaycan Avropa Şurasına tamhüquqlu üzvlük üçün müsbət rəy aldı. Səsvermədə 120 nəfər lehinə, yalnız bir nəfər əleyhinə, beş nəfər isə bitərəf qalmışdı. Nəhayət, 17 yanvar 2001-ci ildə AŞ Nazirlər Komitəsi Azərbaycanın təşkilata tamhüquqlu üzv qəbul edilməsi qərarını təsdiqlədi. Azərbaycan qurumun öz öhdəliklərini uğurla icra edəcəyinə ümidli olsa da, gözləntilərimizi doğrultmadı.

İnsan hüquqlarının, ədalətin və demokratiyanın qarantı kimi tanınan Avropa Şurası mahiyyətindən uzaqlaşaraq beynəlxalq güclərin maraqlarına xidmət edir. Təşkilatın rəsmi prinsipləri beynəlxalq hüquq və Avropa dəyərləri üzərində qurulsa da, reallıqda bu dəyərlər güclü və zəif dövlətlər arasında sərt bir ayırıcı xəttə çevrilib. Avropa Şurasının davranışlarını izlədikdə bu bölünmənin iki hissəyə deyil, maraqların yönəlməsinə uyğun daha çox hissələrə parçalandığını aydın şəkildə görmək mümkündür. Güclü dövlətlərin ərazilərində baş verən insan hüquqları pozuntularına susqun yanaşan təşkilat oxşar və ya daha yüngül hallarda kiçik dövlətlərə qarşı sərt və qərəzli mövqe sərgiləyir. Bu, Avropa Şurasının çoxdan obyektivliyini itirdiyini və beynəlxalq ictimaiyyətin gözündə nüfuzunun sarsıldığını göstərir. Uzun illərdir davam edən ikili standart siyasəti beynəlxalq münasibətlərdə də ciddi narazılıq doğurur. Eyni mahiyyətli hadisələrə fərqli münasibət nümayiş etdirən Avropa Şurası qərar və bəyanatları ilə dünya dövlətləri üçün etibarlı tərəfdaş və obyektiv təşkilat kimi çıxış edə bilmir. Bu, bir çox ölkənin təşkilatın qərarlarını şübhə ilə qarşılamasına və bəzən ümumiyyətlə nəzərə almamasına səbəb olub.

Avropa Şurasının və bütövlükdə Qərbin ikili standart siyasəti Ermənistan-Azərbaycan münaqişəsində özünü daha çox büruzə verdi. Keçmiş xunta rejiminin 2020-ci ildə, COVID-19 pandemiyasının tüğyan etdiyi bir dövrdə keçirdiyi "prezident və parlament seçkiləri" buna bariz nümunədir. Dünyanın hər yerində pandemiya ilə mübarizə aparıldığı və kütləvi tədbirlərin təxirə salındığı bir vaxtda separatçı rejimin belə bir addım atması beynəlxalq hüquqa və insan hüquqlarına açıq-aşkar hörmətsizlik idi. Lakin nə Avropa Şurası, nə də Qərbin digər aparıcı dövlətləri bu qanunsuz seçkilərə münasibət bildirmədi. Bu susqunluq isə təsadüfi deyildi. Hətta nüfuzlu media qurumları belə məsələyə qərəzli yanaşdılar. "BBC"nin bu seçkiləri "Koronavirusun ortasında seçkilər" başlığı ilə təqdim etməsi və bunu bir "cəsarət nümunəsi" kimi qələmə verməsi Qərb mediasının ikili standartlarının bariz göstəricisi oldu. O zaman belə bir sual ortaya çıxır: İnsan hüquqları və demokratiya prinsipləri yalnız bəzi dövlətlər üçün keçərlidirmi? Pandemiya dövründə separatçı rejimin insan həyatına dəyər vermədən seçkilər keçirməsi, önləyici tədbirlər almaması və beynəlxalq ictimaiyyətin buna göz yumması Avropa Şurasının və Qərbin seçici yanaşmasının nə qədər dərin olduğunu sübut etdi. Bu, bir daha göstərdi ki, Avropa Şurası və Qərb dövlətləri üçün insan hüquqları anlayışı maraqların uyğun gəldiyi halda aktual olur. Azərbaycan isə bu ədalətsizliyə baxmayaraq, öz ərazi bütövlüyünü və suverenliyini bərpa edərək beynəlxalq hüququn prinsiplərini özü müdafiə etdi. 2023-cü ilin sentyabr ayında baş tutan lokal xarakterli antiterror tədbirləri isə keçmiş xunta rejiminin tör-töküntülərinin sonunu gətirdi. Avropa Şurasının susqunluqla qarşıladığı bu ədalətsizliyə qarşı Azərbaycanın sarsılmaz iradəsi və qətiyyəti ilə bir daha sübut etdi ki, haqq yolunda səsini ucaldan dövlət heç bir ikili standarta boyun əyməz.

Ümumiyyətlə, uzun illər Avropa siyasi dairələri Ermənistanın təcavüzkar siyasətini təbii və dəyişməz bir gerçəklik kimi qəbul edirdilər. Guya Azərbaycan bu acı gerçəyi qəbul etsəydi, Avropa Şurası Parlament Assambleyası, Avropa Şurası və Avropa İttifaqı onu demokratik ölkə kimi tanıyacaq, bəzi maliyyə yardımları edəcək və "sözəbaxan" bir dövlət kimi başını sığallayacaqdı. Amma onlar unudurdular ki, Azərbaycan xalqının tarixində təslimiyyət anlayışı olmayıb! 2020-ci ilin payızına qədər beynəlxalq təşkilatların, xüsusilə də AŞPA-nın Ermənistan-Azərbaycan münaqişəsinə yanaşması məhz bu riyakar və ikili standartların nümunəsi idi. Azərbaycan isə susurdu. Amma bu, qorxunun və ya acizliyin susqunluğu deyildi. Bu, səbrin, strateji düşüncənin, haqqa olan inamın və gücə çevriləcək qəzəbin səssizliyi idi. Və nəhayət, 2020-ci il sentyabrın 27-də bu səbir sona çatdı. Azərbaycan Ordusu öz gücünü göstərdi, 30 illik ədalətsizlik və beynəlxalq təşkilatların laqeydliyi qarşısında Azərbaycan özü haqq işini yerinə yetirdi. Bu həm də susan, görməzlikdən gələn və ədaləti yalnız maraqlar prizmasından qiymətləndirən beynəlxalq təşkilatlara sarsıdıcı cavab idi. Maraqlıdır, qurum neçə dəfə Ermənistanın işğalçı siyasətini pisləmişdi? Neçə dəfə Ermənistanı xəbərdar etdi ki, işğalçılıq siyasətinə görə təşkilatdan kənarlaşdırılacaq? Neçə dəfə Xocalı soyqırımını müzakirə edib, buna görə Ermənistanı məsuliyyətə cəlb etməyə çağırdı? Qarabağdan didərgin düşən yüz minlərlə azərbaycanlının pozulmuş hüquqlarının bərpası üçün hansı proqramı hazırladı? Nə vaxt Ermənistan rəhbərliyindən Azərbaycan torpaqlarını tərk etməyi tələb etdi? Bunların heç biri baş vermədi. Avropa Şurası və digər beynəlxalq qurumlar 30 il ərzində yalnız kağız üzərində qərarlar qəbul etdi, real addımlar atmadı. Azərbaycanın qələbəsi beynəlxalq təşkilatların susqunluğuna qarşı Azərbaycanın öz sözünü deməsi idi. Bu bir daha göstərdi ki, haqqın tərəzisi gec-tez düzəlir, amma bunu gözləyərək vaxt itirmək olmaz. Qanuni hüquqlarını qorumaq üçün lazım gəldikdə, beynəlxalq laqeydliyin qarşısında öz gücünə söykənmək vacibdir.

Azərbaycan Prezidenti İlham Əliyev ötən il martın 4-də Bolqarıstan Xalq Məclisinin sədri Rosen Dimitrov Jelyazkovu qəbul edərkən qurumun qərəzli fəaliyyətini bir daha diqqətə çatdırıb. Dövlət başçısı bildirib ki, Azərbaycan beynəlxalq hüququn prinsiplərinə uyğun olaraq ərazi bütövlüyü və suverenliyini tam bərpa edib. Bundan sonra bir sıra Avropa təsisatları tərəfindən Azərbaycana qarşı genişmiqyaslı qarayaxma kampaniyasına başlanılıb. Avropa Şurası Parlament Assambleyasında Azərbaycana qarşı qərəzli və çirkin kampaniyanın aparıldığını deyən Prezident İlham Əliyev bu cür yanaşmanın nümayəndə heyətimiz üçün dözülməz olduğunu vurğulayıb. Qeyd edək ki, ölkəmizə qarşı bu qərəzin kökləri Azərbaycanın müstəqil siyasət yürütməsi, öz milli maraqlarını beynəlxalq platformalarda qətiyyətlə müdafiə etməsi və regionda güclü mövqeyə sahib olması ilə bağlıdır. Təsadüfi deyil ki, Azərbaycanın suverenliyini qorumağa yönəlmiş siyasəti Avropa Şurasının bəzi dairələrində narahatlıq doğurur. Azərbaycanın daxilində baş verən ən kiçik hadisə belə Avropa Şurasının gündəminə gətirilir, qərəzli hesabatlar hazırlanır və əsassız ittihamlar irəli sürülür. Amma Ermənistanda baş verən insan hüquqları pozuntuları, siyasi opponentlərə qarşı təzyiqlər, azad mətbuatın boğulması kimi ciddi məsələlər ya görməməzliyə vurulur, ya da formal bəyanatlarla "ötüşdürülür". Dövlətimizin siyasi və iqtisadi müstəqilliyini qoruyaraq Avropa Şurasının təsir dairəsindən kənarda qalması, enerji layihələri və geosiyasi təşəbbüsləri ilə regionda güclü mövqe qazanması qərəzli hesabatlar, qeyri-obyektiv qərarlar və mənfi ictimai rəy yaratmaq cəhdləri ilə özünü göstərir. Qurumun qərəzli mövqeyində mədəni və dini ayrı-seçkilik də müşahidə edilir. İslam sivilizasiyasının bir parçası olan Azərbaycanın Avropa siyasi institutlarında qərəzli yanaşmaya məruz qalması islamofobiyanın bu qurumlarda da özünü göstərdiyini söyləməyə əsas verir.

Lakin rəsmi Bakı Avropa Şurasının qərəzli münasibətinə baxmayaraq, insan hüquqları, demokratiya və hüququn aliliyinə sadiq qalır, bu dəyərlərin selektiv şəkildə deyil, hər kəs üçün bərabər tətbiq olunmasını tələb edir. Azərbaycanın öz maraqlarını müdafiə etməkdə göstərdiyi prinsipial mövqe beynəlxalq təşkilatlara bir daha xatırladır ki, ədalət yalnız haqlının tərəfində olmalıdır.

Nəzrin ELDARQIZI,
"Respublika".